***Gülarə Munis***

***Kədər***

İnsan ömrünü daim müşayiət edən bir amil...

Kədəri heç kim sevmir.

Onu heç kim yaxına buraxmaq istəmir, amma o, gəlir və özü ilə bir dünya ağırlıq gətirir.

Gəlişi çox asan, gedişi çox çətin olur bu çağrılmamış qonağın...

Bizim də ömrümüzə yol tapdı bu kədər.

Xocalı faciəsi ilə bir dünya kədər yağdı vətənimiz Azərbaycanın üzərinə.

Bu kədər təkcə həmvətənlərimizi yox, bizdən çox-çox uzaqlarda yaşayanları da sarsıtdı.

Bu acını minlərlə insan hiss etdi, duydu, yaşadı.

Qələm sahiblərinin də qəlbini əzdi, üzdü bu kədər.

Bu kədərdən qəmli, qüssəli silsilə şeirlər yarandı.

Bu kədər körpələrin gözündə əks olundu.

Bu kədər qocaları qəmə qərq etdi, anaların bağrını dağladı.

Bu kədər qeyrətli oğulların qəlbinə ox kimi sancıldı.

Amma bu kədər insanları sındıra bilmədi.

Qəzəbləndirdi, məyus etdi, amma sındıra bilmədi.

Faciənin ağırlığından damarlarda qan donsa da, gözlərdən nifrət püskürsə də, insanların qələbəyə olan ümidini qıra bilmədi.

Bu kədərin acısını Mübariz kimi, fərid kimi, Çingiz kimi, Gültəkin kimi qəhrəmanlar qismən də olsa azalda bildi.

***Munis G. Kədər : Xocalı insanlıq faciəsi // Füyuzat. – 2016. - № 1. – S. 14-15.***